İPƏK YOLU, No.3, 2024, səh.75-85
https://doi.org/10.30546/SI.2024.2.3.318

# BİZNES MÜHİTİNDƏ DÖVLƏT, ÖZƏL VƏ İŞGÜZAR TƏRƏFDAŞLIQ ƏLAQƏLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİNİN YENİ İQTİSADİ PERSPEKTİVLƏRİ

**Qəzənfər Süleymanov, Sədaqət İbrahimova, Emiliya Şahverənova**

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan
e-mail: suleymanov.q.s@gmail.com

**Xülasə.** Məqalənin məqsədi beynəlxalq təcrübəyə əsaslanaraq, həm dövlət, həm də özəl müəssisə və təşkilatlarda işgüzar tərəfdaşlıq əlaqələrinin genişlənməsi üçün sağlam biznes mühitinin formalaşmasında iqtisadi üstünlüklərin tədqiq edilməsidir. Məqalədə dövlət, özəl və işgüzar tərəfdaşlıq əlaqələrinin genişləndirilməsinin yeni iqtisadi mexanizminin alqoritmi işlənmişdir.

**Açar sözlər:** Biznes mühiti, dövlət, özəl və işgüzar tərəfdaşlıq, makroiqtisadiyyat, şirkət, risk, kommersiya, investisiya.

## PROSPECTS OF IMPROVEMENT OF ECONOMIC EXPANSION OF PUBLIC-PRIVATE BUSINESS PARTNERSHIPS IN THE BUSINESS ENVIRONMENT

**G. Suleymanov, S. Ibragimova, E. Shakhveranova**
*Azerbaijan State Oil and Industry University, Baku, Azerbaijan*

**Abstract.** The purpose of the article is to study the role and economic benefits of expanding public, private and business partnerships in the formation of a healthy business environment based on international experience. As a result of the study, an algorithm for a new economic mechanism for expanding public-private-business partnerships is developed.
**Keywords:** Business environment, state, private business partnership, macroeconomics, company, risk, commerce, investment.

## ПЕРСПЕКТИВЫ УСОВЕРШЕНСТВОВАНИЯ ЭКОНОМИЧЕСКОГО РАСШИРЕНИЯ ГОСУДАРСТВЕННО-ЧАСТНО-ДЕЛОВОГО ПАРТНЕРСТВА В БИЗНЕС-СРЕДЕ

**Г. Сулейманов, С. Ибрагимова, Э. Шахверанова**
*Азербайджанский Государственный Университет Нефти и Промышленности, Баку, Азербайджан*

**Резюме.** Цель статьи заключается в изучении роли и экономических преимуществ расширения отношений государственного, частного и делового партнерства в формировании здоровой бизнес-среды на основе международного опыта. В результате исследования был разработан алгоритм нового экономического механизма расширения государственно-частно-деловых партнерских отношений.
**Ключевые слова:** Бизнес-среда, государство, частно-деловое партнерство, макроэкономика, компания, риск, коммерция, инвестиции.

## 1. Giriş

Müasir biznes yönümlü dünyada baş verən siyasi, iqtisadi və sosial transformasiyalar, bazar iqtisadi münasibətləri ölkələrdə intensiv qloballaşma prosesləri sürətlə artmaqdadır. Belə yanaşmalar isə dövlət və işgüzar tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi yeni iqtisadi mexanizmlərin işlənməsini daha da aktuallaşdırılmışdır. Yəni, dövlətin iqtisadi, siyasi və müxtəlif strateji məqsədlərinə nail olma zamanı yaranan problemin həllində, dövlət orqanlarının və biznes cəmiyyətinin cəhtlərinin birləşdirilməsi əsas məsələdir. Ənənəvi olaraq dövlət orqanları ilə yanaşı yerli özünüidarəetmə orqanları tərəfindən idarə olunan geniş spektrli xidmətlərdə əhalinin də rolu böyükdür. Belə olan halda, müəyyən problemlər meydana çıxır.

Bu zaman dövlət və özəl sektorun səlahiyyət və maliyyə imkanlarından kənara çıxan və yeni fenomenin - dövlət özəl tərəfdaşlığının yaranması kontekstində tələb olunan kompleks tədbirlər planı hazırlanmalıdır. Hazırda dünya arenasında dövlət tərəfindən idarə olunan müxtəlif iqtisadi fəaliyyət növlərinə özəl kapitalın cəlb edilməsi forması kimi dövlət özəl tərəfdaşlarından geniş istifadə edilir [1; 2; 3; 4; 5].

## 2. Dövlət, özəl və işgüzar tərədaşlıq əlaqələrinin biznes mühitində rolu və onun genişlənməsində yaranan problemlər

Müxtəlif alimlər, bazar iqtisadiyyatlı olan bəzi ölkələrdə cəmiyyətin yeni iqtisadiyyatının formalaşmasının fundamental proseslərini, yəni istehsalın qloballaşması, kapitalın beynəlmiləlləşməsi, dövlətlər, regionlar və təsərrüfat subyektləri arasında rəqabətin artması fonunda baş verməsini söyləyirlər. Demək olar ki, dövlət, özəl və işgüzarlıq tərəfdaşlığı [4; 5; 6; 7] dünyanın yüzdən çox ölkəsində tətbiq olunur. Bunlara inkişaf etmiş ölkələri ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Kanada, Yaponiya, Meksika, Argentina, Braziliya, Çin, Koreya Respublikası, Tayvan OPEK dövlətləri, Ukrayna, Qazaxıstan, Özbəkistan, Moldova, Madaqaskar, Kapiru, Zambiya və s. aid etmək olar [6].

Dövlət tərəfindən idarə olunan iqtisadi fəaliyyətin bir çox növlərində özəl kapitalın tətbiqi müəyyən şərtlərlə əlaqədardır. İqtisadiyyatın liberallaşdırılması konsepsiyasının mühüm elementlərindən olan dövlət əmlakının özəlləşdirilməsi tendensiyasını qeyd etmək olar. 20-ci əsrin sonlarında Azərbaycan mürəkkəb tarixi bir dövr yaşamışdır. Ölkənin sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçmişdir. Sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etməklə, dünyada tanınmış ölkə olaraq beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə təsdiqləmişdir. Cəmiyyətdə dövlətçilik ənənələrini gücləndirmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğunu uğurla və davamlı inkşaf etdirmişdir. İqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları ilə uzun illər makroiqtisadi sabitliyini qorumaqla yanaşı, artım tempini və təhlükəsizliyini təmin etmək üçün güclü potensial yaratmışdır. İstənilən proqrama hakim olmaq üçün, əhali, investorlar, biznes və s. ilə yanaşı, hərtərəfli elmi araşdırmalar olmalıdır. Proqrama cəlb olunan ərazilərin, təşkilatların və şəxsiyyətlərin ixtisaslı brendinqinə əsaslanan düşünülmüş, səriştəli təşviqat olmalıdır. İrimiqyaslı layihələr təşviqini yalnız iqtisadi üsullarla həyata keçirmək mümkün olmadığı üçün siyasi komponent həmişə mühüm rol oynamalıdır. Həm proqramın özünün, həm də maraqlı tərəflərin imic və reputasiya aspektlərinin çox vacib faktorlar olması danılmazdır. Bu baxımdan proqramın cəlbedici imicinin yaradılmasına və hər bir layihənin informasiya dəstəyinə böyük ehtiyac duyulur. Bu, dövlət orqanlarının diqqətini proqramın hazırlanması və həyata keçirilməsilə əlaqəli yaranacaq problemlərin həllində dəstək məqsədi potensial investorları, orta və kiçik biznes nümayəndələrini, ixtisaslı işçiləri və mütəxəssisləri maraqlandıracaqdır. Bu isə öz növbəsində əhalinin də marağına səbəb olacaqdır. Hər hansı iqtisadi layihənin həyata keçirilməsi üçün keyfiyyətli imic və informasiya dəstəyinə ehtiyac vardır. Burada isə əsas məqsəd, proqramın

bütün səviyyələrində (hakimiyyət orqanları, media, investorlar, biznes, əhali və s.) iştirak edən subyektlərin və şəxslərin müsbət münasibət və reputasiyasını formalaşdırmaqdır [2].

Dövlət-özəl tərəfdaşlığın paylanması sahələr üzrə müxtəlifdir. Dövlətin ənənəvi inhisarında olan əsas strateji sənaye sahələridir ki, bura daxildir: yerin təkindən istifadə, elektrik enerjisi, sənayesi, infrastruktur sektorları, mədəniyyət obyektləri, tarixi abidələr və s. Dövlət bu ərazilərdə mövcudluğundan tamamilə imtina edə bilməz. Müəyyən əmlak üzərində onu dövriyyədən çıxarmaq, məhdudlaşdırmaq və mülkiyyətçi olaraq qalmaq, ya da ondan istifadənin müəyyən məqsədyönlü xarakteri üzərində nəzarəti saxlamağa məcbur olur. Beynəlxalq təcrübə göstərir ki, dövlət-özəl tərəfdaşlığı müxtəlif fəaliyyət sahələrində formalaşa bilər. Dövlət, özəl və işgüzar tərəfdaşlıq əlaqələrinin mümkün tətbiq sahələri [3; 6] cədvəl l - də göstərilmişdir.

**Cədvəl 1.** Dövlət, özəl və işgüzar tərəfdaşlıq əlaqələrini tətbiq sahələri

| | |
|---|---|
| Nəqliyyat | Yol hərəkətinə nəzarət sistemlərinin tikintisi, istismarı, texniki xidməti, tətbiqi və s. |
| Mənzil və kommunal xidmətlər | Kommunal xidmətlərin yerinə yetirilməsi, kommunal şəbəkələrin istismarı su təchizatı, kanalizasiya və s., küçələrin təmizlənməsi, tullantıların utilizasiyasının təmizlənməsi və utilizasiyasının təmini |
| Ekologiya | Təbii ehtiyatlardan səmərəli istifadə etmək və ekoloji turizmin təşkilindən gəlir əldə etmək hüququ ilə şəhər və şəhərətrafı parkların yaradılması, saxlanılması və inkişafı |
| Daşınmaz əmlak | Tikinti hüququ və kommersiya layihələrində iştirak müqabilində ictimai binaların və məclis evlərinin tikintisinin və istismarının təmini |
| İctimai asayiş və təhlükəsizlik | Nəqliyyat sistemində və özəl şirkətlərin xidmət göstərdiyi ictimai yerlərdə asayişin təmin edilməsi; dayanacaqların təşkili və saxlanması |
| Telekommunikasiya | Telekommunikasiya infrastrukturunun yaradılması və istehlakçılara xidmətlərin yüksək səviyyədə göstərilməsi |
| Maliyyə sektoru | Məcburi sosial sığorta və dövlət pensiya təminatı sahəsində özəl sığorta və idarəetmə şirkətlərinin cəlb edilməsi |
| Təhsil | Yaxınlıqdakı ərazinin tikintisi və inkişafı hüququnu əldə edən özəl şirkətlər tərəfindən məktəblərin,tibb müəssisələrinin və s. tikintisi və avadanlıqla təchiz edilməsi məsələlərinin təmini |

**Mənbə:** [8; 9; 12] istifadə edilməklə müəllif tərəfindən tərtib olunub.

Seçilmiş sahələr çərçivəsində dövlət və özəl sektor arasında tərəfdaşlıq zamanı müəyyən problemlər yaranır ki, alimlərin fikrincə bunlara aşağıdakıları (Cədvəl 2) aid etmək olar:

**Cədvəl 2.** Dövlət, özəl və işgüzar tərəfdaşlıq əlaqələrinin formalaşmasında yaranan problemlərin təsnifatı

- qarşılıqlı fəaliyyətin prioritet (problemli) sahələrinin inkişafı üçün dəqiq strategiyanın olmaması
- qanunvericilik bazasının, vergi siyasətinin mükəmməl olmaması, tariflərin tənzimlənməsi mexanizmləri
- dövlət özəl tərəfdaşlığın layihələrinin idarə edilməsi və həyata keçirilməsində təcrübəsi olan yüksək ixtisaslı kadr çatışmazlığı
- şəffaflığı təmin edən mexanizmlərin işlənməmiş olması

**Mənbə:** [5; 7; 8] istifadə edilməklə müəlliflər tərəfindən tərtib olunub.

## 3. Dövlət, özəl və işgüzar tərəfdaşlıq əlaqələrini genişləndirilməsində yaranan problemlərin həlli yolları

Yuxarıda göstərilən problemlərin həlli modernləşmiş iqtisadi həyatda dövlət, özəl tərəfdaşlığın yeni mexanizmləri ilə həyata keçirilən layihələrin sayını artırmaqla yanaşı, onun keyfiyyətini də yaxşılaşdıracaqdır. Bu cür münasibətlərlə inkişaf etdirilməmiş fəaliyyət sahələrinə özəl kapitalı cəlb etməklə iqtisadiyyatın həm dövlət, həm də özəl sektorunda yüksəliş əldə etmək daha əlçatandır. Hazırda inkişaf etmiş dövlət və özəl sektorları arasında tərəfdaşlıq münasibətləri sisteminin modernləşdirilmiş iqtisadiyyatın fəaliyyətində fundamental element müəyyən səviyyədə mövcuddur. Onun tətbiqi zərurəti isə liberal inkişaf konsepsiyasının iki postulatından (isbatsız) irəli gəlir:

**1.** Özəl mülkiyyət institutlarının formalaşması ilə iqtisadi artımın sürətləndirilməsi prosesi arasında uyğunluq;

**2.** Özəl mülkiyyətə əsaslanan iqtisadiyyatın daha yüksək məhsuldarlığı və səmərəliliyi ilə dövlət mülkiyyətinə və birbaşa dövlət idarəçiliyinə əsaslanan müqayisə.

Dünya və dövlət-özəl tərəfdaşlıq təcrübəsinə əsasən, tərəfdaşlıq layihələrinin həyata keçirilməsi müvafiq mal və xidmət bazarlarında iştirakçılar arasında münasibətlərin uyğunlaşdırılmasına kömək etməklə, özünün formalaşmasına və inkişafına nail olur.

## 4. Dövlət, özəl və işgüzar tərəfdaşlıq əlaqələrinin genişlənməsinin başlıca iqtisadi mexanizmləri

Araşdırmalar göstərir ki, dövlət, özəl və işgüzar tərəfdaşlıq layihələrinin həyata keçirilməsinin uğuru onların hazırlanmasının ilkin mərhələlərindən başlanır. Mütəxəssislərin fikrincə, dövlət və özəl biznes arasındakı tərəfdaşlığın ən mühüm səmərəlilik aspektləri, aşağıdakılardan ibarət olmalıdır:

1. Dövlət-özəl tərəfdaşlığın inkişafı üçün əlverişli mühitin formalaşdırılması, hakimiyyət orqanları ilə biznes arasında etimad səviyyəsinin artırılması;

2. Gələcək inkişafla tərəfdaşlığın hüquqi və tənzimləyici dəstəyinin gücləndirilməsi, tarif tənzimlənməsi, vergitutma, torpaq qanunvericiliyinin, dövlət-özəl tərəfdaşlığının ayrı-ayrı obyektlərinin qeydiyyatı qaydalarının daha da təkmil və əlverişli işlənib-hazırlanması;

3. Layihənin həyata keçirildiyi bölgənin ərazi xüsusiyyətlərinin nəzərə alınması ilə məhdud müddətin müəyyən edilməsi; ölkənin, rayonların və şəhərlərin strateji-perspektivli inkişaf layihələrində dövlət-özəl tərəfdaşlığının möhkəmləndirilməsi;

4. Özəl biznes tərəfdaşlığı aşağıdakı istiqamətlərdə dövlət dəstəyinin və zəmanətlərin gücləndirilməsi:

5. Tərəfdaş layihələr üçün maliyyə alətlərinin genişləndirilməsi və səmərəli istifadəsi;

6. Kompensasiya mexanizmlərinin inkişafının təmini;

7. Hökumətin bütün səviyyələrində sosial-iqtisadi inkişafın prioritetlərində dəyişiklik edilərkən sərmayəçilərin layihələrin şərtlərinə əməl olunmasına təminatın verilməsi;

8. Tarif tənzimlənməsinin dəyişməzliyinə təminatın verilməsi.

9. Layihələrin məqsəd və vəzifələrinin bütün potensial iştirakçılar üçün kifayət qədər açıq olması ilə yanaşı, investorlarda layihələrin hazırlanmasına mümkün qədər operativ cəlb edilməsi;

10. Layihələrin hazırlanması ilə yanaşı, onların həyata keçirilməsində demokratik nəzarətin mütəşəkkil təşkili;

11. Tərəfdaşlara və ictimaiyyətə məlumat verməklə yanaşı biznes birliklərində istifadənin təmini;

12. Layihələrin müqavilə şərtlərinin tənzimlənməsi məqsədilə optimal mobilliklə; tərəfdaşların davranışında çevikliyin və yeniliyi həyata keçirilməsi.

Müasir şəraitdə nəzərə almaq lazımdır ki, inkişaf etmiş ölkələrdə, dövlət-özəl tərəfdaşlığının artırılması inkişafın və rəqabət qabiliyyətinin mühüm mexanizmi kimi qəbul olunmuşdur. Dövlət-özəl tərəfdaşlıq investisiyaların cəlbi sxemində layihələrin idarə edilməsinin effektiv forması kimi qəbul edilir. Xarici ekspertlər görə aşağıdakı üstünlüklər mühüm hesab edilir (Cədvəl 3):

**Cədvəl 3.** Dövlət, özəl və işgüzar tərəfdaşlıq əlaqələrinin üstünlükləri

| Dövlət-özəl tərəfdaşlıq layihələrinin üstünlükləri | İşgüzar dairələr üçün dövlət-özəl tərəfdaşlığın cəlbediciliyi | Dövlət-özəl tərəfdaşlığın dövlət üçün cəlbediciliyi |
|---|---|---|
| dövlət əhəmiyyətli obyektlərə investisiyaların tətbiqi | ənənəvi olaraq dövlət sektoruna çıxış; birbaşa dövlət dəstəyi və iştirakı | inkişafın sistematik problemlərinin həlli (infrastrukturun, enerjinin, mənzil-kommunal təsərrüfatının və s. inkişaf etməməsi) |
| infrastruktur obyektlərinin saxlanmasında (istifadəsində) dövlət xərclərinin azaldılması | xarici təcrübədən istifadə | işlərin və xidmətlərin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi |
| layihə risklərinin dövlət və özəl investorlar arasında bölüşdürülməsi; idarəetmə funksiyalarını özəl investora ötürməklə layihənin səmərəli idarə edilməsini təmin etməsi | uyğun zəmanətlər altında uzunmüddətli investisiyaların yerləşdirilməsi imkanları | vergilərdən və digər dövlət büdcəsindən daxilolmaların artması |
| infrastrukturun inkişafına müasir, yüksək səmərəli texnologiyaların cəlb edilməsi | daha çox sayda layihələr arasından seçimin aparılması | investisiya və digər fəaliyyətin artırılması |
| investisiya mühitinin yaxşılaşdırılması | | rəqabət səviyyəsinin yüksəldilməsi, sosial sabitliyin möhkəmləndirilməsi |

**Mənbə:** [10; 12] istifadə edilməklə müəllif tərəfindən tərtib olunmuşdur.

Bir sıra alimlərin baxış mövqeyinə görə dövlət və biznes strukturları arasında tərəfdaşlıq əlaqələrinin həyata keçirilməsi prosesi, ölkədə həyata keçirilən bəzi layihələr üçün xarakterik olan çətinliklərlə üzləşir. Bu da iqtisadi layihələrin həyata keçirilməsinin dövlət-özəl tərəfdaşlığının təcrid olunmuş forması deyil. Bu isə o deməkdir ki, ölkənin biznes, hüquqi, mədəni mühiti ilə sıx bağlıdır [7].




**Şəkil 1.** Dövlət, özəl və işgüzar tərəfdaşlıq əlaqələrinin genişləndirilməsinin başlıca istiqamətləri
**Mənbə:** [6; 9] istifadə edilməklə müəllif tərəfindən tərtib edilib

Dövlət hakimiyyətinin iqtisadi siyasətinin maraqlarını nəzərə almaq olduqca vacibdir və dövlət-özəl tərəfdaşlığı sahəsində səmərəliliyin artırılması üçün qanun layihələri, qərarlar, sərəncamlar obyektiv icra olunmalıdır. Ətraf mühitin proqnozlaşdırılması ilə hüquqi təhlükəsizliyinin, tərəfdaşlıq sisteminin, biznes mühitinin,investisiya mühiti ilə bağlı dövlət qərarlarının hazırlanması, qəbulu ilə tərəflərin şəffaf maraqlarında öz əksini tapmalıdır.

Xarici ölkələrdə özəl biznes üçün vacib və cəlbedici olmayan layihələrin həyata keçirilməsində özəl kapitalın cəlb edilməsini stimullaşdırmaq məqsədilə dövlət onun maddi töhfəsi ilə yanaşı sosial əhəmiyyətli layihələrdə pul vəsaitləri (büdcə investisiyaları) və ya kvazi pullar (vergi güzəştləri, subsidiyalar) ayırır [8].

Bir çox inkişaf etməkdə olan ölkələrdə son illərdə dövlət-özəl tərəfdaşlığının üstünlüklərindən səmərəli istifadə etmək məqsədi ilə tədqiqatçılar tərəfindən ilkin zəruri şərtlər yaranıb və tərtib olunub (Şəkil 1).

Mürəkkəb bir mexanizm olan dövlət-özəl tərəfdaşlığının inkişaf, idarəetmə və fəaliyyəti üçün əsas prinsipləri işlənməlidir. BMT-nin İqtisadi Komissiyasına görə, dövlət-özəl tərəfdaşlığın keyfiyyətlə işləməsinin əsas prinsiplərinə daxildir:

- qurumların inkişafı;
- şəffaf və səmərəli icra prosedurlarına riayət edilməsi;
- dövlət orqanlarının məsuliyyəti;

Ümumiyyətlə yuxarıda qeyd olunanları nəzərə alsaq, belə bir fikrə gəlmək olar ki, dövlət-özəl tərəfdaşlığının beş əsas prinsipi ən çox istifadə olunur ki, bunlar da aydın şəkildə sxem 2-də öz əksini tapıb:




**Şəkil 2.** Dövlət, özəl və işgüzar tərəfdaşlıq əlaqələrinin genişləndirilməsinin başlıca prinsipləri
**Mənbə:** [5; 9] istifadə edilməklə müəlif tərəfindən tərtib edilib

## 5. Dövlət, özəl və işgüzar tərəfdaşlığın əlaqə modelinin alqoritmi

Tədqiqatlara əsaslanaraq, dövlət və biznesin dövlət-özəl tərəfdaşlığı çərçivəsində hüquqi (müqavilə-hüquqi) qarşılıqlı əlaqə modeli prinsipcə hər hansı standart (hətta müəyyən dövlətlər qrupu üçün) vahid modelə endirilə bilməz. Yəni dövlət-özəl tərəfdaşlığının əlaqə modeli müəyyən bir dövlətin müvafiq hüquq sisteminin növünə uyğun planlaşdırılmalıdır [9].

Bundan əlavə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə dövlət-özəl tərəfdaşlığın hüquqi institusionallaşdırılması modelinin alqoritmi aşağıdakı formalarda işlənməlidir:

Birinci forma: dövlət sektorunun və özəl tərəfdaşların mövcud şirkətə qoşulması və ya birgə qarışıq şirkət yaratması faktına əsaslanır. Qarışıq şirkətin əsas xüsusiyyəti, müxtəlif məqsədlərin idarə heyətində cəmləndiyi dövlət və özəl maliyyə vəsaitlərinin (pulların) birləşdirilməsidir. Avropada yanacaq-energetika sektorunda, regional nəqliyyat şirkətlərində, turizm sektorunda, yüksək texnologiyalı sənayedə qarışıq şirkətlərin çoxsaylı nümunələri vardır.

İkinci forma: dövlət və özəl tərəfdaşlar arasında müqavilə (müqavilə) bağlaması ilə xarakterizə olunur. Bir-birini tamamlayan məqsədlərə nail olmaq üçün birgə tərəfdaşlıq maraqların müqavilə əsasında əlaqələndirilməsi yolu ilə həyata keçirilir [4].

Dövlət-özəl tərəfdaşlığın formalarının təsnifatının klassik versiyası aşağıdakı (Şəkil 3) növləri nəzərdə tutur:




**Şəkil 3.** Dövlət, özəl və işgüzar tərəfdaşlıq əlaqələrinin formalaşmasının növləri
**Mənbə:** [6; 8; 11; 12] istifadə edilməklə müəlif tərəfindən tərtib edilib.

Dövlət müqavilələrinin (iş müqavilələrinin) səciyyəvi xüsusiyyəti onların inzibati forması və müqavilə münasibətləri subyektinə mülkiyyət hüququnun dövlət tərəfindən xüsusi sahibkarlığa keçməməsi deməkdir. Müqavilə üzrə bütün fəaliyyətlər (tikinti, materialların satın alınması və s.) dövlət vəsaiti hesabına həyata keçirilir. Müqavilənin şərtləri, xərclər smetası digər sənədlərlə tənzimlənir və müqavilə üzrə bütün riskləri dövlət öz üzərinə götürür [7; 11].

Dövlət və ya bələdiyyə əmlakının (torpaq, avadanlıq, bina və s.) icarəyə verilməsi müəyyən şərtlərlə icarə müqaviləsi əsasında ödəniş müqabilində müvəqqəti istifadəyə verilmiş hüquqların özəl sektora verilməsini nəzərdə tutur.

Obyektlərin (və ya sistemlərin) icarə müqaviləsinin bağlanmasının əsas məqsədi ondan ibarətdir ki, dövlətə məxsus müsabiqə əsasında obyektin idarə edilməsində özəl biznesi cəlb etməklə, kommersiya risklərini sonuncuya ötürmək və xidmətin keyfiyyətini yüksəltməkdir [11]. İcarə müqavilələrinə əsasən, icarəçi dövlətdən (və ya bələdiyyədən) müvəqqəti istifadə üçün obyekt alaraq tikintidə iştirak etmir. Şəxsi biznes icarəçi kimi obyektə qulluq edir, göstərilən xidmətlərə görə haqq toplamaqla, istifadəyə görə dövlətə ödənişlər edir.

Konsessiya - dövlət və ya bələdiyyə (qrant verən) ilə hüquqi şəxs (konsessiyaçı) arasında konsessioner tərəfindən konsessiyaçıya mülkiyyət, istifadə və müəyyən şərtlərlə sərəncam vermək hüquqlarının verilməsindən irəli gələn münasibətlər sistemidir. Dövlət əmlakının müqavilə üzrə, ödənişli və qaytarılmalı əsaslarla, dövlətin və ya bələdiyyənin müstəsna hüququ olan fəaliyyəti həyata keçirməkdir [4; 7].

Konsessiya müqavilələri dövlət-özəl tərəfdaşlığın ən ümumi formasıdır. Bunun özəlliyi isə dövlət və tərəfdaşlıqlar ortaqlıq obyekti üzərində mülkiyyət hüququnu saxlamaqla, özəl şirkətə müəyyən müddət ərzində müqavilədə göstərilən funksiyaları yerinə yetirmək səlahiyyəti verir. Konsessiya müqaviləsinin vacib əsas məqamı konsessiyaçının tərəfdaşlıq layihəsində iştirak edən müəyyən obyektlərə (və ya sistemlərə) investisiya etmək üçün müəyyən maliyyə öhdəliklərini qəbul etməsidir. Nəticədə, konsessiya altında özəl biznes üç risk qrupunu öz üzərinə götürür (Şəkil 4):




**Şəkil 4.** Dövlət, özəl və işgüzar tərəfdaşlıq əlaqələri ilə risklərin minimumlaşdırılması
**Mənbə:** [5; 10; 11; 12] istifadə edilməklə müəlif tərəfindən tərtib edilib.

Dövlət-özəl tərəfdaşlıq formasının seçilməsinin məqsədəuyğunluğunu müəyyən edən mühüm amil büdcə vəsaitləri məhdud olan sosial əhəmiyyətli obyektlərin (və ya sistemlərin)

inkişafına, texniki və texnoloji cəhətdən təchiz edilməsinə əhəmiyyətli investisiya resurslarının cəlb edilməsi zərurətidir.

Mövcud dövlət-özəl tərəfdaşlıq formalarını təhlil edərək qeyd etmək lazımdır ki, onların hər birinin öz üstünlükləri və çatışmazlıqları vardır. Bu da dövlət və biznes arasında iqtisadi münasibətlər sistemində onlardan ən məqsədəuyğun istifadə sahələrini müəyyən edir. Dövlət-özəl tərəfdaşlığın seçilmiş institusional formasının düzgünlüyü müəyyən bir layihənin faydalarının artmasına və uğuruna kömək edə bilər [10; 12].

**Nəticə.** Aparılmış araşdırma nəticəsində, yuxarıda qeyd olunanları nəzərə alaraq, belə bir qənaətə gəlmək olar ki, müasir iqtisadi şəraitdə forma seçiminin düşünülməməsi dövlət-özəl tərəfdaşlığın potensial risklərini və mənfi cəhətlərini artırır. Dövlət-özəl tərəfdaşlıq formalarının müxtəlifliyi isə onların bir sistemin həlqələri kimi qəbul edilməsinə mane olmur. Çünki onlar son nəticədə cəmiyyətin əsas tələbatlarının ödənilməsinə yönəldilmiş bir neçə ümumi prinsiplərə tabedirlər. Həm forma seçərkən, həm də tərəfdaşlıq aktlarını imzalayarkən tərəflər zəmanət və risklərə mühüm diqqət yetirməlidirlər. Risklərin bölüşdürülməsi problemi dövlət və özəl biznes arasında əməkdaşlığın nəzəri və praktiki aspektlərinin ən mürəkkəb və zəif öyrənilmiş problemlərdən biridir. Məhz bu baxımdan prosesi daha ətraflı öyrənmək üçün, inkişaf etmiş ölkələrin təcrübəsinə müraciət etmək lazım gəlir.

## Ədəbiyyat

1. https://www.justice.gov.az/categories/1625
2. https://e-qanun.az/framework/50014
3. https://www.economy.gov.ru/
4. Abbasov A. (2005), Biznesin əsasları, Bakı, Nurlan.
5. Atakişiyev M. (2010), Azərbaycanın müasir iqtisadi inkişaf strategiyası: Keçid iqtisadiyyatından modernləşməyə. Bakı, Azərnəşr.
6. Практическое руководство по вопросам эффективного управления в сфере государственно-частного партнерства. (2008), Издание Организации объединенных наций, Женева (Швейцария).
7. Баглай В.В. (2010), Государственно-частное партнерство как перспективное направление интеграции власти и бизнеса. Развитие малого и среднего предпринимательства в регионе: Материалы региональной НПК. Тюмень: ТюмГНГУ.
8. Баглай В.В. (2010), Информационно-имиджевое сопровождение реализации региональных проектов государственно-частного партнерства. Известия высших учебных заведений. Социология. Экономика. Политика. Тюмень: ТюмГНГУ, No.2.
9. Попов Е. (2007), Частник - выгодный партнер. Парламентская газета.

10. Попов А.А. (2009), Государственно-частное партнерство при освоении ресурсов недр Восточной Сибири Научно-практический экономикоправовой журнал Бизнес, менеджмент и право, Том.1, No.19.
11. Татаркин А.И., Романова О.А., Лаврикова Ю.Г. (2009), Теоретические основы государственно-частного партнерства. Научно-практический экономико-правовой журнал Бизнес, менеджмент и право, Том.1, No.19.
12. Частно-государственное партнерство при реализации стратегических планов: Практика и рекомендации. (2015), СПб.: Международный центр социально-экономических исследований Леонтьевский центр, Москва, 24.